**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRLİYİ**

**AZ1022 Bakı, Nəsimi rayonu, M.Mirqasımov küç., 1A** **www.health.gov.az**
**Tel.: (+994 12) 598 50 94 Faks: (+994 12) 493 06 95** **Elektron ünvan: office@health.gov.az**

13.12.2011 № 123

№-zə

# ƏMR

Bakı şəhəri

**"Rezidentura təhsilinin təşkili məsələləri üzrə Komissiyanın yaradılması barədə"**

"Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 mart 2010-cu il tarixli 50 nömrəli Qərarına əsasən rezidentura təhsilinin beynəlxalq tibb təhsili sisteminin prinsiplərinə uyğun təşkili və aparılmasına nəzarət, eləcə də bu sahədə metodik rəhbərliyi təmin etmək məqsədi ilə

## ƏMR EDİRƏM:

1. "Rezidentura təhsilinin təşkili məsələləri üzrə Komissiya" bu əmrin əlavəsində göstərilən tərkibdə yaradılsın (əlavə olunur).
2. "Rezidentura təhsilinin təşkili məsələləri üzrə Komissiya haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
3. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

**Nazir müavini** **Abbas Vəlibəyov**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
13.12. 2011-ci il tarixli,
123 nömrəli əmri ilə təsdiq
edilmişdir

# Rezidentura təhsilinin təşkili məsələləri üzrə Komissiya haqqında

# ƏSASNAMƏ

## I. Ümumi müddəalar

1. Rezidentura təhsilinin təşkili məsələləri üzrə Komissiyanın (bundan sonra – Komissiya) əsas məqsədi rezidentura təhsilinə aid təşkilatı və həkimlərin hazırlığı məsələlərində baza kimi müəyyən olunmuş müəssisələrə metodik rəhbərliyin göstərilməsidir.

2. Komissiya Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərir.

3. Komissiya öz fəaliyyətində mövcud olan qanunvericilik aktlarını, Səhiyyə Nazirliyinin müvafiq əmr və sərəncamlarını, habelə bu Əsasnaməni rəhbər tutur.

## II. Komissiyanın əsas vəzifələri və funksiyaları

2. Komissiya aşağıdakı vəzifələri yerinə yetirir

2.1. rezidentura təhsili ilə bağlı normativ-hüquqi sənədlərin hazırlanmasını təşkil edir;

2.2. rezidentura təhsilin tətbiqi ilə bağlı vəziyyəti təhlil edir və mütəmadi olaraq prosesin təkmilləşdirməsinə dair təkliflər hazırlayır;

2.3. ixtisaslar üzrə müvafiq təhsil proqramlarının hazırlanmasını və mütəmadi olaraq yenilənməsini təşkil edir;

2.4. tibb müəssisələrin maddi-texniki bazasını, elmi-pedaqoji kadrların mövcudluğunu və həmin müəssisələrin tibb fəaliyyətinin göstəricilərini nəzərə alaraq, həkim-mütəxəssislərin hazırlığını aparan baza kimi istifadə ediləcək təhsil, elm müəssisələrin və aparıcı klinikaların siyahısı barədə Səhiyyə Nazirliyinə təklif verir;

2.5. respublikada hər bir ixtisas üzrə həkim-mütəxəssislərə ehtiyac nəzərə alınmaqla, rezidenturaya qəbul planının layihəsini hazırlayır;

2.6. rezidenturada ixtisaslar üzrə həkimlərin hazırlığını aparan mütəxəssislərin (rəhbər –kuratorlar) siyahısının layihəsini tərtib edir;

2.7. rezidenturanın təşkili və tətbiqi ilə bağlı yaranan məsələlərin həlli üçün müxtəlif sahələr üzrə çalışan yüksək ixtisaslı mütəxəssisləri cəlb edir;

2.8. rezidenturada təhsil alan həkimlərin və rəhbər-kuratorların fəaliyyətinə mütəmadi nəzarət edir;

2.9. hər təhsil ilinin sonunda təhsil, elm müəssisənin, klinikalarının elmi şurası (tibbi şurası) tərəfindən təqdim olunan həkim-mütəxəssislərin hazırlığı ilə bağlı hesabatların təhlilini aparır və təkliflər hazırlayır;

2.10. rezidenturada təhsil alan həkimlərin yekun attestasiya komissiyasının tərkibinə dair təklifləri hazırlayaraq Səhiyyə Nazirliyinə təsdiq üçün təqdim edir;

2.11. rezidenturada təhsilinin aparılmasında aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün öz səlahiyyətləri daxilində təklif və tövsiyələr hazırlayır, onların aradan qaldırılması üçün müəyyən edilmiş qaydada müvafiq tədbirlər görür.

## III. Komissiyanın fəaliyyətinin təşkili

3. Komissiyanın tərkibi Səhiyyə Nazirliyi tərəfindən müəyyənləşdirilir.
4. Komissiya üzvlərinin fəaliyyəti ictimai əsaslarla həyata keçirilir.
5. Komissiyanın fəaliyyətinə rəhbərliyi və işinin təşkilini Komissiyanın sədri həyata keçirir.
6. Komissiyanın iclasları mütəmadi olaraq, ayda bir dəfədən az olmayaraq keçirilir və protokollaşdırılır.
7. Komissiyanın iclasları onun üzvlərinin üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir.
8. Komissiyanın qərarları iclasda iştirak edən Komissiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.
9. Komissiyanın iclaslarına üzvü olmayan digər mütəxəssislər də dəvət oluna bilərlər.
10. Komissiya öz fəaliyyəti ilə bağlı məlumatları, iclaslarının protokollarından çıxarışlarını Səhiyyə Nazirliyinin rəhbərliyinə təqdim edir.

## IV. Yekun müddəalar

11. Komissiyanın fəaliyyəti ilə bağlı ortaya çıxan mübahisəli məsələlərə Nazirlik tərəfindən qanunvericiliyə uyğun olaraq baxılır.